

*Gün gələcək*
*Azərbaycan dünyaya günəş kimi doğacaq.*

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

3 AVQUST 2022-ci il ÇƏRŞƏNBƏ № 162 (7344) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ



# Azərbaycan-Türkiyə

## həmrəyliyi, müttəfiqliyi böyük töhfələr verir

***Dostluq, qardaşlıq təməlləri üzərində qurulan Azərbaycan-Türkiyə münasibətləri etibarlı tərəfdaşlıq, əməkdaşlıq əlaqələrinin möhkəmlənməsinə zəmin yaradaraq müttəfiqlik səviyyəsinə yüksəlmişdir. Bu gün dünya zəngin tarixi kökləri ilə bir-birinə mənəvi bağlı olan iki qardaş ölkənin birliyinə, həmrəyliyinə, müttəfiqliyinə şahidlik edir. Bu birlik yalnız dövlətlərimizin maraqlarını deyil, eyni zamanda sadiqliyi, etibarı, qarşılıqlı dəstəyi ehtiva edir.***

Bu gün Azərbaycan və Türkiyə müttəfiq ölkələrdir. Siyasi, mənəvi dəstəyini əsirgəməyən Türkiyə hər zaman ölkəmizin səylərini dəstəkləməklə hərtərəfli əlaqələrin inkişafına böyük yardım göstərmiş, dünya birliyinə inteqrasiyasında, regional təhlükəsizliyin qorunmasında, ümumiyyətlə, siyasi-iqtisadi və elmi-mədəni maraqların reallaşmasında mühüm rol oynamışdır.

Azərbaycanın ərazi bütövlüyü uğrunda başlayan İkinci Qarabağ müharibəsində dünyanın həsəd apardığı möhtəşəm türk birliyi xalqlarımızı bir ideya, bir amal - türk birliyi uğrunda daha da möhkəmləndirdi. Vətən müharibəsində qazandığımız Zəfər dostluğumuzu, qardaşlığımızı daha da sarsılmaz etdi.

İki ölkə arasında dostluq və qardaşlıq münasibətlərini yeni müttəfiqlik səviyyəsinə qaldıran, 2021-ci il 15 iyun tarixində Şuşa şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında imzalanan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" ölkələrimizin siyasi, iqtisadi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahələrindəki imkan və potensiallarını birləşdirdi. Bəyannamədə göstərilən bütün müddəalar keyfiyyətcə daha yüksək səviyyəli əməkdaşlığa, eyni zamanda tərəfdaşlığa, ölkələrimiz arasında tarix boyu mövcud olan münasibətlərin genişlənməsinə, dərinləşməsinə yol açdı. Qardaşlıq rəmzinə çevrilən, iki qardaş ölkə arasında əlaqələri ən yüksək səviyyəyə qaldıran Bəyannamədə göstərilən bütün müddəalar daha yüksək səviyyəli əməkdaşlığın, tərəfdaşlığın təminatıdır.

Regionda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində səylərini davam etdirən Azərbaycan-Türkiyə bu gün türk birliyinə, həmrəyliyinə böyük töhfələr verirlər. Bu baxımdan, Qars müqaviləsinə, Dostluq və Əməkdaşlıq Müqaviləsinə, Azərbaycan-Türkiyə Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım Müqaviləsinə istinad edən Şuşa Bəyannaməsi tarixən mövcud olan və heç bir zaman sarsılmayan dostluq, qardaşlıq münasibətlərinin təsdiqidir.

Azərbaycan-Türkiyə münasibətləri bütün digər sahələrdə olduğu kimi, hərbi sahədə də yüksək səviyyədə inkişaf edir. Azərbaycanda Ordumuzun modernləşdirilməsi istiqamətində reallaşdırılan layihələr, qardaş ölkə ilə birlikdə keçirilən hərbi təlimlər bunun bariz nümunəsidir. Belə ki, İkinci Qarabağ müharibəsində Azərbaycanın qazandığı möhtəşəm Zəfərdən sonra Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən Azərbaycan Ordusunun maddi-texniki təminatının yaxşılaşdırılması istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi, hərbi bilik və təcrübələrin möhkəmləndirilməsi, döyüş qabiliyyətinin daha da yüksəldilməsi məqsədilə ən son model döyüş texnologiyaları ilə gücləndirilən Azərbaycan Ordusu həm də yüksək səviyyəli təlimlərdə iştirak edir.

(davamı 3-cü səhifədə)



# Azərbaycan-Türkiyə həmrəyliyi, müttəfiqliyi böyük töhfələr verir



(əvvəli 1-ci səhifədə)

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında bağlanmış hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən ötən il iyunun 28-də Bakıda "Mustafa Kamal Atatürk - 2021" birgə döyüş atışlı taktiki təlim keçirilmiş, 2021-ci il sentyabr ayının 6-da Laçın rayonunda keçirilən təlimlərdə müasir döyüş texnikası və digər hərbi vasitələrdən çətin relyef şəraitində istifadəetmə vərdişlərinin artırılmasına xüsusi diqqət göstərilmişdir.

Həmin ay Bakıda keçirilən Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin nümayəndələrinin iştirakı ilə hər üç ölkənin hərbi qulluqçularının peşəkar hazırlıq səviyyəsinin daha da artırılmasına böyük töhfə verən "Üç qardaş - 2021" beynəlxalq təlimi ordular arasında mövcud olan ikitərəfli əlaqələrin daha da gücləndirilməsinə xidmət edəcək, eyni zamanda, terrorla mübarizə üçün yeni üsulların kəşf edilməsinə və qarşılıqlı təcrübə mübadiləsi yolu ilə bacarıqlarımızı inkişaf etdirməyə imkan yaradacaqdır.

Naxçıvan Muxtar Respublikasında "Sarsılmaz qardaşlıq-2021" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimlərə döyüş təyyarələri, hərbi daşıma və zərbə helikopterləri cəlb edilmiş, təlimlərdə çətin pilotaj manevrlərlə təlim-məşq uçuşları keçirilmişdir.

Bu il mayın 9-da ölkəmizin də iştirak etdiyi, əsas hədəfləri terrorçuluqla mübarizə, xilasetmə, silah və sursatlardan istifadə olan "Efes-2022" müştərək və birləşmiş təlimlər Türkiyənin qərbi Anadolu, Orta Egey, Qara Dəniz, İzmir körfəzi, Doğanbəy atıcılıq poliqonu bölgələrində keçirilmişdir. Türkiyə Silahlı Qüvvələrinin ən böyük müştərək və birləşmiş təlimlərindən olan "Efes-2022"də TSQ Baş Qərargahı, quru, dəniz və hava qüvvələrinin komandanlıqları, sərhəd qoşunları və xüsusi təyinatlılar, Türkiyənin nazirlikləri və mülki təşkilatları, eləcə də aparıcı müdafiə sənayesi şirkətləri iştirak etmişlər.

Bütün sahələrdə olduğu kimi, hərbi sahədə də qardaş Türkiyə ilə qarşılıqlı əlaqələrə xüsusi önəm verən Azərbaycan hərbçilərimizin Türkiyə hərbçiləri ilə birgə təlimlərdə iştirak etməsini, qazandığı təcrübəni yüksək dəyərləndirir. Bu kontekstdə qardaş ölkə ilə hərbi sahədə əməkdaşlığın inkişaf etdirilməsi, qarşılıqlı təcrübə mübadiləsi, iki ölkə ordularının bölmələrinin qarşılıqlı fəaliyyətinin, komandirlərin hərbi qərar qəbuletmə və bölmələri idarəetmə bacarıqlarının təkmilləşdirilməsi Azərbaycan dövlətinin prioritetidir.

2018-ci ildən etibarən Türkiyə Respublikası Sənaye və Texnologiya Nazirliyi və Selçuk Bayraktarın rəhbərlik etdiyi "Türkiye Teknoloji Takımı" - T3 Vəqfinin təşkilatçılığı ilə hər il Türkiyədə keçirilən "TEKNOFEST" Aerokosmik və Texnologiya Festivalının bu il may ayının 26-da ilk dəfə Türkiyədən kənarda olaraq Bakıda keçirilməsi Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının, strateji müttəfiqliyinin möhtəşəm təntənəsi, Azərbaycan-Türkiyə birliyinin növbəti nümayişi oldu.

Gələcəyə birgə addımlayan iki qardaş ölkə bu festivalı Azərbaycanda gerçəkləşdirməklə bir daha bütün dünyaya sarsılmaz, heç bir zaman ayrılmaz Azərbaycan-Türkiyə birliyi mesajını verdi.

Türkiyə və Azərbaycan respublikalarının dövlət bayraqlarının və "TEKNOFEST" festivalının bayrağının Bakı səmasında dalğalanması əbədi qardaşlığın, dostluğun və gündən-günə güclənən, qüdrətlənən Türkiyə-Azərbaycan birliyinin təzahürü, həm də bütövlükdə türk dünyasının bir araya gəlməsini şərtləndirən ən mühüm amildir.



**Mehparə ƏLİYEVA,**
**"Respublika".**